# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/44** **25 dekabr 2015-ci il**

## Auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin verilməsi üzrə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin təkmilləşdirilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin «Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında» 2015-ci il 21 dekabr tarixli fərmanının icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Lisenziyalaşdırma qaydasının dəyişməsi və bəzi fəaliyyət növləri üçün lisenziya alınması tələbinin ləğvi ilə əlaqədar, eləcə də lisenziya alınması tələbi ləğv edilən fəaliyyət növləri ilə məşğul olmaq üçün qanunlarda mövcud olan tələblərin yerinə yetirilməsi üzərində nəzarətin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması üçün aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

| | |
|---|---|
| Qəşəm Bayramov | - Auditorlar Palatası Aparatının rəhbəri |

***İşçi qrupunun üzvləri:***

| | |
|---|---|
| Nəcəf Talıbov | - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri; |
| Maarif Abbasov | - Auditorlar Palatasının Hüquqi təminat və standartlaşdırma idarəsinin rəisi; |
| Səbuhi Gülməmmədov | - Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi; |
| Vəli Rəhimov | - Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinin rəisi |
| Elnur İbrahimov | - Auditorlar Palatasının Şurası yanında Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri; |

| | |
|---|---|
| Namiq Abbaslı | Auditorlar Palatasının Şurası yanında Beynəlxalq standartlar üzrə komitənin sədri; |
| Aftandil Əliyev | - Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə komitənin sədri. |

2. İşçi qrupuna tapşırılsın ki, 1 (bir) ay müddətində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin verilməsi üzrə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb təqdim etsinlər.

3. Bu sərəncama nəzarəti öz üzərimdə saxlayıram.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**